# Nifrətdən, ədalətsizlikdən qidalanan ölkə

## Yeni Kaledoniyada "islahat"lar Parisin xəbis niyyətindən xəbər verir



"Azərbaycanın yürütdüyü dövlət siyasəti beynəlxalq hüquq və təcrübəyə əsaslanan ümumbəşəri prinsiplərə söykənir. Bizi əsassız ittiham edən Fransa isə uzun illərdir milyonlarla insanı qətlə yetirən, soyqırımları həyata keçirən, dövlətlərin daxili işlərinə qarışaraq onları istismar etməyə çalışan, neokolonializm siyasəti aparan dövlətdir".

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. Deputat bildirib ki, Azərbaycana qarşı qərəzli mövqedən çıxış etmək Fransanın xarici siyasətinin tərkib hissəsinə çevrilib və bu, məqsədli xarakter daşıyır.

### Makron mürtəce plan həyata keçirir

K.Bayramov qeyd edib ki, Fransa uzun illərdir əsarətində saxladığı Yeni Kaledoniyada bundan sonra da müstəmləkəçilik siyasətini davam etdirmək məqsədilə yerli kanak xalqına qarşı assimilyasiya siyasətini yürüdür. Buna görə də Fransanın işğalı altında olan Yeni Kaledoniyada ciddi etiraz aksiyaları keçirilir.

Yerli sakinlərin narazılığını yatırmaq üçün Paris adaya qoşun yeridib. Belə görünür ki, rəsmi Paris Əlcəzairdə, Ruandada və digər müstəmləkələrində törətdiyi cinayətləri Yeni Kaledoniyada təkrarlamaq istəyir. Təkcə son hadisələr zamanı 54 mühafizəçi yaralanıb, 82 nümayişçi saxlanılıb, 200 maşın və 50-dən çox iş yeri yandırılıb. Fransa hökuməti etirazları yatırtmaq üçün Yeni Kaledoniyada fövqəladə vəziyyət elan edib. Kanak xalqının budəfəki etirazlarına səbəb isə Emmanuel Makron hakimiyyətinin Yeni Kaledoniya ilə bağlı mürtəce planı həyata keçirməyə başlamasıdır. "Artıq siyasi sifariş əsasında Fransa parlamenti Yeni Kaledoniyada konstitusiya "islahat"ları ilə bağlı müzakirələrə start verib. Əslində, "islahat"lar Fransanın xəbis niyyətindən xəbər verir. Bu dəyişikliklərin yeganə məqsədi Yeni Kaledoniyada aborigen xalqın hüquqlarını məhdudlaşdırmaq, gəlmə fransızların hüquqlarını genişləndirməkdir. Bu isə yerli kanak xalqının mənafeyinə ziddir. Kanaklar öz tarixi vətənlərində ikinci dərəcəli etnik qrupa çevriləcəklərini düşünürlər və bunun qarşısını almaq üçün ayağa qalxıblar", - deyə o əlavə edib.

### Fransa mətbuatı törədilən vəhşilikləri işıqlandırmır

Deputat diqqətə çatdırıb ki, hazırda Fransa öz ordusunun Yeni Kaledoniyada törətdiyi vəhşilikləri dünya ictimaiyyətindən gizlətməyə çalışır. Bunun üçün tiktok sosial şəbəkəsinə çıxışı bloklayıb.

Fransa mediası küçədə güllələnən kanakları göstərməkdən, yerli əhaliyə qarşı törədilən vəhşilikləri yaymaqdan imtina edir. Yeni Kaledoniya xalqı informasiya blokadası tətbiq etmək üçün internetin tamamilə kəsilə biləcəyindən, belə olduğu halda ordunun adada törədə biləcəyi vəhşiliklərdən narahatdır.

K.Bayramov vurğulayıb ki, bütün bu destruktiv siyasət beynəlxalq ictimaiyyəti də narahat etməlidir: "Elə bu məqsədlə Bakı Təşəbbüs Qrupu və Fransanın son koloniyaları olan Kanaki (Yeni Kaledoniya), Maohi Nui (Fransız Polineziyası), Fransız Qvianası, Martinik, Qvadelupa və Korsikadakı müstəqillik uğrunda mübarizə aparan 14 siyasi hərəkat birgə bəyanat yayıb. Bəyanatda Fransa hökumətinin Kanaki-Yeni Kaledoniyada seçki kütləsinin genişləndirilməsi lehinə qanunsuz dəyişikliyi zorla tətbiq etməsi pislənilir, müstəqillik uğrunda haqlı mübarizəsində kanak xalqına tam dəstək ifadə olunur".

### Absurd iddia

Deputatın sözlərinə görə, rəsmi Paris Azərbaycan-Fransa münasibətlərində daha mənfi təsirlərə gətirib çıxaracaq növbəti addım atıb. Daxili işlər naziri Jerald Darmanen "France-2" telekanalına müsahibəsində Azərbaycanı Yeni Kaledoniyada iğtişaşlara müdaxilə etməkdə və ölkəsinin daxili işlərinə qarışmaqda ittiham edib.

Bu absurd iddia bir daha sübut edir ki, aqressiyadan, nifrətdən, ədalətsizlikdən qidalanan Fransa yalnış siyasət yürütdüyünü etiraf etmək əvəzinə Bakıya qarşı əsassız ittihamlar irəli sürməklə məsuliyyətdən yaxa qurtarmağa çalışır. Minlərlə kilometr uzaqlıqdakı insanların həyatındakı reallıqları dərk etməyən, onları öz qanunlarına uyğunlaşdırmağa çalışan, bu alınmadıqda isə müxtəlif yollarla hiyləyə əl atıb qanunlarına təsir edən Fransa yerli xalqların tələblərini görməzdən gəlməklə yanaşı, onların ən adi problemlərini də həll etmir. Hazırda əhalisinin 53 faizinin yoxsulluq şəraitində yaşadığı Qvianada Emmanuel Makronun prezidentliyi dövründə bu göstərici 10 faizdən çox artıb.

Deputat qeyd edib ki, Fransanın daxili işlər naziri Azərbaycanı Yeni Kaledoniyada müstəqillik tərəfdarı olan etirazçıları dəstəkləməkdə ittiham etmək əvəzinə, ölkəsinin bu cür etirazlara səbəb olan dənizaşırı bölgələri ilə bağlı uğursuz siyasətinə diqqət yönəltməlidir: "Dünyanın gözü önündə Yeni Kaledoniyada konstitusiya referendumunu Fransa keçirirsə, məcburi assimilyasiyanı Fransa aparırsa, adaya polis qüvvələrini Fransa yeridirsə, burada Azərbaycanın nə günahı var? Əlbəttə, günahkar axtarışına çıxmaq, Azərbaycanı günahlandırmaq, hər zaman olduğu kimi, yenə də Fransa rəhbərliyinin öz qanunsuz və dağıdıcı siyasətinə haqq qazandırmaq üçün uğursuz cəhdindən başqa bir şey deyil".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 21 may, № 105.- S.8.